# AZƏRBAYCAN TARININ ATASI — ULU BABAM BÖYÜK SADIQCAN

***Zəngin musiqi irsinə malik xalqımızın milli ruhunu oxşayan və ürəkləri ecazkar səsi ilə riqqətə gətirən Azərbaycan tarı musiqi alətləri xəzinəmizin haqlı olaraq tacı hesab olunur. İki oktava yarım səsə malik olan tarın texniki imkanları insan səsinə yaxın olduğundan onun səsi melodik baxımdan bütün musiqi alətlərindən yüksəkdə durur. Bu səbəbdən də tarda milli mənsubiyyətindən asılı olmayaraq istər klassik, istərsə də müasir üslubda səslənən xalq və bəstəkar mahnılarını, rəqslərini ifa etmək imkanları başqa alətlərlə müqayisədə daha genişdir.***

Azərbaycanın ən görkəmli xanəndələri əsrlərdən bəri muğamları tarzənlərin müşayiəti ilə oxumuşlar və bu günə kimi muğamlarımızın formalaşdırılması və inkişafında onların rolu əvəzolunmazdır.

Sözügedən musiqiçilər sırasında, ilk növbədə, Azərbaycanın incəsənət aləmində özünəməxsus yüksək pillədə yer tutmuş Azərbaycan tarının atası və bir neçə muğamın müəllifi, virtuoz tarzən və istedadlı bəstəkar kimi tanınmış Mirzə Sadıq Əsədoğlunun yaradıcılıq fəaliyyətini qeyd emək lazımdır.

Mirzə Sadıq Əsədoğlu (Sadıqcan) 1846-cı ildə Şuşa şəhərində anadan olmuşdur. Şərq musiqisinin gözəl bilicisi, yaxşı yaddaşa malik olan şair, bəstəkar, vokal sənətinin tədrisi üçün özünəməxsus effektli metodikanın müəllifi Xarrat Qulu Sadığın səsini bəyənərək onu özünə şagird götürür.

On səkkiz yaşında səsini itirməsinə baxmayaraq, musiqiyə olan hədsiz həvəsi Sadığı musiqi aləmindən döndərməmiş və müəlliminin yanında qazandığı biliklər onun virtuoz tarzən kimi yetişməsində müstəsna rol oynamışdır.

O, tütək, ney, kamança çalmağı öyrənmiş, məşhur musiqiçi Mirzə Ələsgər Qarabağinin şagirdi olmuş və tarın sirlərinə dərindən yiyələndikdən sonra tarzənlik bacarığının ən yüksək zirvəsinə qalxmışdır.

Mirzə Ələsgərin ansamblında kamança çalan Sadıq sonralar özünü bütövlükdə tara həsr etmiş və qısa müddət ərzində öz ustalığını təkrarolunmaz bir səviyyəyə çatdırmışdır. Bundan sonra Sadığı sevə-sevə xalq arasında Sadıqcan adı ilə çağırmağa başlamışlar.

Sadıqcan yaradıcılığa XIX əsrin 60-cı illərində başlamışdır. O, Xurşudbanu Natəvanın rəhbərlik etdiyi «Məclisi-üns» dərnəyinin yığıncaqlarında fəal iştirak etmişdir. «Xanəndələr məclisi»nin və Mir Möhsün Nəvvabın Məclisi-fəramuşan» ədəbi dərnəyinin işində də onun fəal iştirakı qeyd olunur. Həmin məclislərdə şair, müğənni və musiqiçilər tərəfindən musiqi nəzəriyyəsinə dair müzakirələr aparılır, həmçinin incəsənət əsərlərinin ilk təqdimatı və sənətkarlar arasında müsabiqələr və yarışlar keçirilirdi.

Sadıqcanla bərabər bu yığıncaqlarda iştirak edən Qarabağın tanınmış şairlərindən Abdulla bəy Asi, Fatma xanım Kəminə, Məşədi Əyyub Baki, Həsənəli xan Qaradaği, Şəhid, ifaçı və müğənnilərdən Hacı Hüsü, Məşədi Cəmil Əmirov, İslam Abdullayev və başqalarını qeyd etmək olar.

Sadıqcanla Mir Möhsün Nəvvab arasında yaranmış bu tanışlıq sonralar bu sənətə xidmət edən birgə böyük yaradıcılıq əməkdaşlığına, dostluğa və yaxın qohumluğa çevrilmişdi.

Şuşada elmi bilikləri və müdrikliyi ilə tanınan, hər şeyi ölçüb-hesablamağı bacaran Mir Möhsün Nəvvabla səmimiliyi və çılğınlığı ilə seçilən virtuoz tarzən Sadıqcan arasında Azərbaycan xalqına xas olan təmənnasız dostluğu indiki cavanlara nümunə göstərmək olar.

Xan qızının və Mir Möhsün Nəvvabın Sadıqcanı məclislərə tez-tez dəvət etməsi tarzənin yaradıcılığına müsbət təsir etmiş və o, artıq Qafqazda, Yaxın və Orta Asiyada geniş şöhrət qazanmağa başlamışdır.

Bakı musiqi məclisinin rəhbəri Məşədi Məlik Mənsurovun oğlu, tanınmış tarzən Məşədi Süleyman Mənsurov öz xatirələrində yazır: «Mirzə Sadıq o dövrün ən məşhur tarzəni idi. Onun möcüzəvi çalğısı insanları ahənrüba kimi özünə cəlb edirdi. Təcrübəli virtuoz çox vaxt mizrabsız çalır, tarı çənəsinə sıxırdı. Sol əlinə ağırlıq düşməsin deyə, o, tarı mümkün qədər yuxarı qaldırırdı. Bəzən də coşaraq tarı boynunun ardına qoyub çalırdı. Onun çalğısının səsinə quşlar da gəlirdi».

XIX əsr şairlərindən Seyid Əzim Şirvaninin və Məşədi Əyyub Bakinin şerlərində, Məhəmmədağa Müctəhidzadənin «Qarabağnamə»sində Sadıqcanın adına rast gəlmək olar. Mənim aləmimdə isə Sadıqcan yaradıcılığını, həmçinin dünyanın iki məşhur musiqiçisinin — skripkanın islahatçısı Stradivarinin ustalığı və skripkanın virtuozu Paqanininin ecazkar ifası ilə müqayisə etmək olar. Lakin bu böyük sənətkarlardan fərqli olaraq Sadıqcan onlara məxsus istedadı özündə cəmləşdirmiş və tarın islahatçısı və virtuoz tarzən kimi öz adını dünyanın musiqi tarixinə qızıl hərflərlə yazmışdır.



Sadıqcan özünün virtuoz tarzənlik bacarığından istifadə edərək bu qədim aləti təkmilləşdirmək və onda çalğı manerasını dəyişdirmək üçün yollar axtarmağa başlayır. Bu araşdırmaların aparılması nəticəsində o, Azərbaycan xalq musiqisinin və muğamların xüsusiyyətlərini nəzərə almaqla 1875 — 1878-ci illərdə tar alətinin quruluşunda köklü dəyişiklər aparır. Tara cingənə və kök simləri əlavə etməklə onların sayını çoxaldaraq beşdən on birə çatdırır, həmçinin tarın səs düzümündə artıq tonları götürməklə cəmi on yeddi ton saxlayır. Əvvəllər diz üstündə çalınan tarı ilk dəfə sinəsinə qaldırır.

Bundan sonra musiqiçilər yeniləşmiş tarı möcüzə, Sadıqcanı isə «Mirzə» və «tarın atası» adlandırmağa başlayırlar. Sadıqcan tərəfindən təkmilləşdirilmiş tar modeli Dağıstanda, İranda və Orta Asiyada geniş yayılır.

Mirzə Sadıq istedadlı bəstəkar kimi «Orta Segah» və «Bayatı-Şiraz» muğamlarına bir neçə rəng bəstələmiş, bu və ya digər muğamların tərkibinə daxil olmuş bir sıra təsniflərin, rənglərin və mahnıların təkmilləşməsində mühüm rol oynamışdır.

Sadıqcanı 1902-ci ildə varlı bir erməninin oğlunun toyunda iştirak etməyə çağırırlar. Qnun dostu və qudası Mir Möhsün Nəvvab münəccim kimi toyda bir xəta baş verəcəyi barədə Sadıqcanı xəbərdar etmişdi. Lakin səfərqabağı həmişə Nəvvabla məsləhətləşən Sadıqcan bu dəfə onun qəti etirazına baxmayaraq, 1902-ci ilin qışında çoxsaylı və təkidli dəvətlərdən sonra bu toyda iştirak etməyə razılıq verir. Onun ifası toyda iştirak edənlər tərəfindən hədsiz dərəcədə bəyənilir. Lakin zəhərlənmiş halda toydan evə qayıdan Sadıqcanın ağzından qan açılır və o, 1902-ci ildə doğma şəhəri Şuşada dünyasını dəyişir.

Bu hadisə Sadıqcanın ailəsinə sarsıdıcı zərbə vurmuş və onların tarzənliklə bağlı fəaliyyətlərinə demək olar ki, bir sipər çəkmişdir. Sadıqcanın nəticələrinin dediyinə görə, onun böyük oğlunun arvadı Zümrüd xanım üç oğluna tarzənliklə məşğul olmağı qadağan etmişdi. Halbuki onun böyük oğlu Əşrəf Sadıqov Sadıqcanın nəvələri arasında gözəl tarçalan idi. Onun kiçik qardaşı Teymur Sadıqov deyərdi: «Əşrəf muğamlarımızı bilərək onları məharətlə çalar, eşidənləri heyran edərdi. Evdə, ailə məclislərdə o, tar çalanda yaşlı qohumlar və qonaqlar deyərdilər: «Lap rəhmətlik babasına çəkib». Sadıqcanın övladları tarzənlik fəaliyyəti ilə məşğul olmasalar da, musiqi aləmindən tam uzaqlaşmadılar.

Böyük Sadıqcan sənətini davam etdirən nəticəsi, hazırda Moskvada fəaliyyət göstərən və özünün yaratdığı caz kollektivi ilə xarici ölkələrə, o cümlədən, respublikamıza dəfələrlə qastrol səfərləri edən dünyanın tanınmış məşhur pianoçu- cazmeni Vaqif Əmir oğlu Sadıqovun yaradıcılığını xüsusən qeyd etmək lazımdır. Həmçinin Sadıqcanın başqa nəticəsini, Bakıda həkim vəzifəsində çalışan və bir neçə mahnının müəllifi Nəvvab Şamil oğlu Sadıqovu da göstərmək olar.

Sözsüz ki, Sadıqcan yaradıcılığının əsas varisləri onun şagirdləridir.

Mirzə Sadıq Əsədoğlu öz yaradıcılıq fəaliyyəti müddətində Azərbaycan tarının sirlərinə dərindən yiyələnən, tarzənlik bacarığını ən yüksək zirvələrdə saxlayan müsiqiçilərdən ibarət böyük bir məktəb yaratmışdır. Qurban Pirimov, Məşədi Zeynal, Malıbəyli Həmid, Məşədi Cəmil Əmirov, Şirin Axundov kimi məşhur Azərbaycan tarzənləri onun dahiyanə məktəbinin layiqli yetirmələri və davamçıları olmuşlar.

Vəfatından sonra da Sadıqcan məktəbindən bəhrələnən neçə-neçə məşhur tarzən, o cümlədən, Zərif Qayıbov, Mənsur Mənsurov, Əhsən Dadaşov, Bəhram Mənsurov, Həbib Bayramov, Baba Salahov, Hacı Məmmədov, Ramiz Quliyev, Sərvər İbrahimov, Möhlət Müslümov və başqaları bu gözəl alətin imkanlarından məharətlə istifadə edərək Azərbaycan tarına xas olan yüksək ifaçılıq mədəniyyətini Sadıqcanın həqiqi varisləri kimi beynəlxalq səviyyədə keçirilmiş müvafiq festivallarda böyük ustalıqla nümayiş etdirmişlər.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, UNESCO və İSESCO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyəti nəticəsində Azərbaycan tarı 2012-ci ildən bəri UNESCO-nun Bəşəriyyətin Toxunulmaz Mədəni İrsi Listəsinə daxil edilmişdir.

Lakin bu böyük uğur bizim milli məfkurəmizi dayandırmamalı və bizi arxayın etməməlidir. Vətən sadəcə olaraq dağdan, daşdan, torpaqdan və həmin torpaqda axan çaylardan ibarət deyil. Vətən onu hədsiz sevən, vətən qarşısında verəcəyi borcu anlayan, lazım gəldikdə isə öz canından keçməyi bacaran vətəndaşlardan ibarətdir.

Bununla bağlı böyük məmnuniyyətlə nəzərinizə çatdırmaq istəyirəm ki, 2021-ci ildə Mirzə Sadıq Əsədoğlunun — Sadıqcanın anadan olmasının 175 ili tamam olur. Onun anadan olduğu Şuşa şəhəri, doğma yurdu Qarabağ və onun ətrafında olan torpaqlarımız 30 illik erməni işğalından artıq azad olunubdur. Ümidvaram ki, Azərbaycan tarının atası Mirzə Sadıq Əsədoğlunun — Sadıqcanın 180 illik yubileyi yenidən dirçələn, bərpa olunan Şuşada təşkil olunacaq və bu məsələyə dair xüsusi diqqət yetiriləcəkdir.

Düşünürəm ki, Mirzə Sadıq Əsədoğlunun adını əbədiləşdirmək, həyat və yaradıcılığı haqqında azərbaycan, rus və ingilis dillərində kitab nəşr edilməsi və film çəkilməsi, habelə Şuşada Sadıqcan adına tar muzeyinin təsis edilməsi vaxtı artıq yetişmişdir.

***Elxan CƏFƏROV,***
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü.**



**Şəkillərdə:** *Sadıqcan; Sadıqcanın ansamblı (sağdan sola): kamançaçı Ata Bağdaqül oqlu, Sadıqcan, xanəndə Bülbülcan, naqaraçı Hüseynbala, dəfçalan Vaso Kikialişvili. Tiflis. 1878 il.*